2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 oktyabr 2015-ci il tarixli 88 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 13 oktyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi üzrə namizədliyi "Azadlıq-2015" siyasi partiyalar bloku tərəfindən irəli sürülmüş Hüseynov Akif İsa oğlunun 2015-ci il oktyabrın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən tərəfimdən icraata qəbul edilmişdir.

Namizəd A.İ.Hüseynov müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi üzrə namizədliyi "Azadlıq-2015" siyasi partiyalar bloku tərəfindən irəli sürülmüş, həmin dairənin ərazisində seçicilərin imzası toplanılaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, ancaq dairə seçki komissiyası imzaların yoxlanması barədə ona məlumat verməmiş, imzaların yoxlanılmasında iştirakı təmin edilməmiş, nəticədə etibarlı imzaların yetərli olmaması əsası ilə namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlə əlaqə saxlanılmış, əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüquqlarının olması izah edilmiş, komissiyanın iclasında iştirakı təmin edilmişdir. Namizəd sübut qismində əsaslandığı sənədləri ekspert qrupunun üzvünə təqdim etməkdən imtina etmişdir.

Dairə seçki komissiyası tərəfindən araşdırma ilə əlaqədar təqdim edilmiş sənəddən müəyyən edilir ki, iclasın keçiriləcəyi barədə namizədə məlumat verilmiş, iclasda iştirak etməyə dəvət edilmiş və dairə seçki komissiyasının 7 oktyabr 2015-ci ildə keçirilən iclasında iştirak etmişdir.

Dairə seçki komissiyasının mübahisələndirilən 7 oktyabr 2015-ci il tarixli, 15/36 saylı qərarında namizədliyi irəli sürülmüş A.İ.Hüseynovun namizəd kimi qeydə alınmasından imtinanın əsası kimi təqdim edilmiş 550 seçici imzasından imza etmiş seçicilərdən 15-nin həmin dairənin dislokasiyasına aid olmaması, 3 seçicinin göstərilən ünvanda yaşamaması, 1 imzanın seçki hüququ olmayan şəxs tərəfindən verilməsi, 4 seçici imzasının isə düzəlişi təsdiq edilməmiş imzalar olması,

həmçinin 96 seçicinin dairə seçki komissiyasına yazılı ərizə ilə müraciət edərək aldadılma və sair səbəblər nəticəsində imza verdiklərini və həmin imzalarının etibarsız hesab edilməsini xahiş etmələri, etibarsız hesab edilmiş imzalar çıxıldıqdan sonra etibarlı imzaların namizəd kimi qeydə alınmaq üçün kifayət etmədiyi göstərilmişdir.

Araşdırmanın nəticəsi olaraq dairə seçki komissiyası tərəfindən etibarsız hesab edilmiş seçki hüququ olmayan şəxs tərəfindən verilmiş imza, seçki dairəsi ərazisindən toplanılmamış 14 seçici imzası və imza etmiş seçicilərin müraciəti əsasında etibarsız hesab edilmiş 96 imza istisna olmaqla, etibarsız sayılmış digər imzalar namizədin xeyrinə etibarlı hesab edilmişdir. Həmin imzalar nəzərə alındıqdan sonra etibarlı hesab edilmiş 439 seçici imzası namizədin qeydə alınması üçün kifayət etmədiyindən müraciətin təmin edilməsi üçün əsaslar müəyyən edilməmişdir.

Aparılmış araşdırma ilə müəyyən edilmişdir ki, dairə seçki komissiyası yuxarıda qeyd edilən əsaslarla Seçki Məcəlləsinin müvafiq maddələrinə istinad etməklə deputatlığa namizəd A.İ.Hüseynovun namizədliyinin qeydə alınmasından imtina edilməsi ilə bağlı düzgün nəticəyə gəlmişdir.

Seçki Məcəlləsinin 113.1.1-ci maddəsində göstərilir ki, seçki komissiyası namizədin, qeydiyyata alınmasından onlar tərəfindən bu Məcəlləyə uyğun təqdim etdikləri məlumatlar həqiqi olmadıqda və ya onların etibarsızlığı əhəmiyyətli xarakter daşıdıqda (bu məcəllənin 60.3-cü maddəsində göstərilən hallar istisna olmaqla) imtina edə bilər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, namizədliyin qeydə alınmasından imtinaya dair 38 saylı Nizami ikinci (Gəncə) dairə seçki komissiyasının 7 oktyabr 2015-ci il tarixli, 15/36 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 113.1.1-ci, 147.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi üzrə namizədliyi "Azadlıq-2015" siyasi partiyalar bloku tərəfindən irəli sürülmüş Hüseynov Akif İsa oğlunun 11 oktyabr 2015-ci il tarixli 88 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 oktyabr 2015-ci il tarixli, 15/36 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov